# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №21 (7471) | 31 dekabr 2019-cu il | Çərşənbə axşamı | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə

## Təbriki

**Əziz şirvanlılar!**

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hər birinizə xoşbəxt həyat, firavanlıq və sevinc dolu günlər arzu edirəm.

Ulu öndər Heydər Əliyevin milli birliyimizə və həmrəyliyimizə xidmət edən fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 16 dekabr 1991-ci il tarixli qərarı ilə dekabr ayının 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günü elan olunmuş, dünya azərbaycanlılarının qurultayı keçirilmiş, soydaşlarımızın vahid ideologiya, mənəvi dəyərlər ətrafında birliyi təmin edilmişdir.

Təqdirəlayiq haldır ki, ulu öndərin müstəqil dövlətçilik konsepsiyası, milli ideologiyamızın əsas prinsipləri bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz geniş təbliğ edilir. Azərbaycan həqiqətləri, xalqımızın tolerant, multikultural həyat tərzi dünya ictimaiyyətinə çatdırılır.

Regionların sosial-iqtisadi inkişafı, əhalinin rifah halının yaxşılaşması, böyük infrastruktur layihələrin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Regionda və dünyada yaşanan gərginliyə, hərbi münaqişələrə, iqtisadi və siyasi kataklizimlərə baxmayaraq 2019-cu il respublikamızın, o cümlədən Şirvan şəhərinin sosial-iqtisadi inkişafında böyük uğurlarla tarixə çevrilir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq şəhərimizdə çoxmənzilli yaşayış binalarının dam örtükləri təmir edilmiş, məhəllələrdə abadlıq-quruculuq işləri aparılmış, mərasim evləri inşa edilmiş, sakinlər üçün əyləncə, istirahət guşələri yaradılmışdır.

Şəhərin içməli su təchizatı sisteminin yenidən qurulması layihəsi çərçivəsində yaşayış binalarının və digər obyektlərin su və kanalizasiya sistemlərinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, avtomobil yollarında, park və xiyabanlarda bərpa işləri aparılmış, Heydər Əliyev prospekti və Naxçıvan küçəsi boyunca ağacəkmə aksiyaları keçirilərək yeni yaşıllıqlar salınmışdır. Əhalinin mənzil-məişət şəraiti və sosial-rifah halı daha da yaxşılaşmış, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilmişdir.

Mən bu yeni il ərəfəsində Şirvan şəhərinin hərtərəfli inkişafında fədakar əməyi ilə fərqlənən insanlara öz dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

İnanıram ki, şirvanlılar həmişə olduğu kimi bundan sonra da dövlət müstəqilliyimizin, milli həmrəylik və birliyimizin möhkəmlənməsinə əməli fəaliyyətləri ilə yeni töhfələr verəcəklər.

Bu ülvi arzularla sizi Dünya Azərbaycanlılarının həmrəylik günü və yeni il bayramı münasibəti ilə bir daha ürəkdən təbrik edir, hər birinizə xoşbəxtlik, can sağlığı, bol ruzi-bərəkət arzu edirəm.

**Bayramınız mübarək olsun.**



## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların növbəti səyyar qəbulu keçirildi

**Şəhər 5 nömrəli ümumi orta məktəbdə, təsdiq olunmuş qrafikə uyğun olaraq Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən vətəndaşların növbəti səyyar qəbulu keçirilmişdir. Qəbulda, İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, dövlət orqanlarının yerli idarələrinin və xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.**

Səyyar qəbul-görüşdə sakinlərə cari ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlar barədə ətraflı məlumat verən şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bildirdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsi lazımi səviyyədə təmin edilir, bu məsələlər daim diqqətdə saxlanılır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi, yoxsulluğu aradan qaldırmaqdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, keçirilən belə səyyar görüşlərin məqsədi sakinlərin problemlərini öyrənmək, onlara həssaslıqla yanaşmaq və operativ şəkildə həllinə nail olmaqdır.

Qəbul zamanı 52 nəfər şəhər sakini onları narahat edən müxtəlif məsələlərlə bağlı şəhər İcra Hakimiyyətinin başçısına müraciət ünvanlamışdır. Qəbula gələn vətəndaşlar fərdi qaydada dinlənilmiş, müraciətlərə aydınlıq gətirilmiş, həlli vacib olan problemlərin dərhal, digərlərinin isə araşdırılaraq qanunauyğun formada aradan qaldırılması üçün şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıqlar verilmişdir.

Səyyar qəbulda sakinlər onlara yaradılan şəraitə, göstərilən qayğıya və problemlərinin həllinə yönəlmiş səyyar görüşlərin təşkilinə görə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıqlarını bildirdilər.

**"İŞIQ",**
**Ə.AXUNDOV (foto)**

## Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin iştirakı ilə şəhərimizdə ağacəkmə aksiyası keçirildi

**20.12.2019-cu il tarixdə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü ilə Şirvan şəhərində məcburi köçkünlər üçün yeni salınmış qəsəbəyə gedən yolun ətrafına ağacəkmə aksiyası keçirilmişdir.**

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun, şəhərin idarə, müəssisə və təşkilatlarının nümayəndələrinin, Yeni Azərbaycan Partiyası Şirvan şəhər Təşkilatının üzvü olan fəal gənclərin, səhiyyə və təhsil ocaqlarının, şəhərin Mənzil Təsərrüfatı İdarəsi və Kommunal Kombinatı müəssisəsinin əməkdaşlarının və media nümayəndələrinin iştirakı ilə ağacəkmə aksiyası zamanı 3200-dən artıq həmişəyaşıl şam və küknar ağac tingləri əkilmiş, suvarılmış və onlara aqrotexniki qaydada qulluq göstərilmişdir.





Yaşıllıq zolaqlarının genişlənməsi, ekoloji tarazlığın qorunması, ekoloji mühitin sağlamlaşdırılmasının sürətlənməsi, eyni zamanda şəhər əhalisi arasında ekoloji mədəniyyətin və təbiətə qayğı hissinin güclənməsi baxımından böyük əhəmiyyəti olan aksiyada şirvanlılar böyük ruh yüksəkliyi ilə iştirak etmişlər.

Tədbirdə iştirak edən şirvanlılar şəhər ərazisində ekoloji mühitin yaxşılaşdırılmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təşəkkür və minnətdarlıqlarını bildirdilər.

# BƏLƏDİYYƏ SEÇKİLƏRİNDƏ YÜKSƏK FƏALLIQ MÜŞAHİDƏ OLUNDU

**46 saylı Şirvan DSK üzrə 34 məntəqəni özündə birləşdirən 2 bələdiyyəyə-Şirvan və Hacıqəhrəmanlı bələdiyyələrinə seçkilər keçirilmişdir. Şirvan bələdiyyəsinə üzvlər seçmək üçün 17 yerə 65 nəfərin namizədliyi irəli sürülmüşdür. Onlardan 23 nəfəri siyasi partiyaların nümayəndələri, 42 nəfər isə öz təşəbbüsləri ilə irəli sürülmüş namizədlər idi. Dairə üzrə 33 məntəqənin 41 min 854 seçicisi onlara qarşı öz münasibətlərini bildirməli idilər.**

**Hacıqəhrəmanlı bələdiyyəsinin üzvülüyünə isə 9 nəfər seçilməli idi. Burada 29 namizəd qeydə alınmışdı. Namizədlərdən 9 nəfəri siyasi partiyalardan, 20 nəfəri öz təşəbbüsü ilə irəli sürlənlər idi. Seçkilərin gedişini izləmək üçün ümumilikdə Şirvan DSK üzrə 12 veb-kamera quraşdırılmışdı.**

## 27 №-li məntəqədə

**Yerli özünüidarətmə orqanı olan 5-ci bələdiyyə seçkisi adi qış günlərindən birinə-dekabrın 23-ə təsadüf etmişdi. Elə həmin gün digər məntəqələrdə olduğu kimi, T.İsmayılov küçəsindəki 15 nömrəldi ünvanda yerləşən 27 nömrəli məntəqəyə də axın vardı.**



Bir sözlə, şəhid Bəhruz Aslanov adına şəhər 16 nömrəli tam orta məktəbdə yerləşən 27 saylı seçki məntəqəsinin qarşısında qələbəlik idi.

Hələ saat 8-ə 1 neçə dəqiqə qalıb. Məntəqənin sədri, pedaqoji elmlər namizədi Çingiz Şirəliyev seçiciləri salamladı, fəallıqlarına görə onlara təşəkkür etdi.

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Sonra-saat $8^{00}$-da səsvermə başladı. Qapı ağzında növbə yaranmışdı. İlk növbədə səsverməyə ağsaqqallar dəvət olundular. Malik Şirəliyev, Əlbala Quliyev təlimata uyğun olaraq bildirişlərini göstərib şəxsiyyət vəsiqələrini seçki məntəqə üzvlərinə təqdim edirlər. Sonra büllüten götürüb namizədlərin ad və soyadlarını nəzərdən keçirib lazım bildikləri namizədə səs verirlər.

Vətəndaşlıq borclarını yerinə yetirənlərdən birinə yaxınlaşırıq. Əkbər Ələkbərov deyir ki, dəfələrlə seçkilərdə iştirak etmişəm. Fəallıq bu dəfə də diqqətimi cəlb etdi. Aydın hiss olunurdu ki, seçkiyə kimi dairə seçki komissiyasının üzvləri, məntəqə fəalları maarifləndirici tədbirləri yüksək səviyyədə keçirmişlər.

O əlavə edir ki, konstitusiya hüququndan istifadə edərək istədiyim namizədələrə səs vermişəm. Açığını deyim ki, onları yaxından tanıyıram. Əminəm ki, onlar Bələdiyyə üzvü seçiləcək. Bu isə sakinlərin xeyrinə olacaq.

Məntəqədə 12 yerli müşahidəçi iştirak edirdi. YAP-dan, Müasir Müsavat Partiyasından, AVCİYA-dan, QHT-lərdən olan müşahidəçilər dedilər ki, bizim üçün əlverişli şərait yaradılmışdır. Müşahidə zamanı elə ciddi qanun pozğunluğu ilə rastlaşmamışıq. Hər kəs sərbəst şəkildə məntəqə üzvlərinə yaxınlaşır, bülleten götürüb istədikləri namizədə səs verir.

Seçki günü əlaqə saxladığımız 2 saylı (4 nömrəli məktəb), 4 saylı (2 nömrəli məktəb), 5 saylı (18 nömrəli məktəb-lisey), 7 saylı (Mədəniyyət Mərkəzi) və s. məntəqələrdə seçici fəallığının olduğunu öyrəndik.

**F.RƏHİMOV**




## 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

# Biz çoxuq, lap çox




**31 dekabr - bu gün Azərbaycan xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!**

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazandı və artıq bütün Azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü-Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

31 dekabr tarixinin bütün dünya azərbaycanlılarının birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd olunduğunu bildirən ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi elan edilmişdir.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi".

Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır.

Dövlət başçısının imzaladığı sərəncamlarla Bakı şəhərində 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin, deməli, Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini təsdiqlədi.

Bayramınız mübarək!

**"İŞIQ"**

# İLK DƏFƏ SƏS VERDİM

***«Mən sülhə səs verirəm milyonlardan biritək, Beşikdəki körpələr hıçqırıb oyanmasın.»***



**Səs verməyə gedərkən gözəl şairimiz Hüsyen Arfin yuxarıdakı misraları yadıma düşdü.**

Hələ orta məktəbdə oxuyanda səs vermək nə deməkdir? sualını valideynlərimə verər, onlardan cavab alardım. Səs vermənin necə olmasını birinci dəfə dekabrın 23-də bələdiyyə seçkilərində gördüm. Universitetdən tələbələri buraxdılar ki, hər kəs qeydiyyatda olduğu yerdə səs versin. Mən də sübh tezdən Şirvana gəlib 24№-li seçki məntəqəsinə tələsdim. Axı ilk dəfə idi ki, mənə də səs vermək üçün bildiriş göndərilmişdi.

Hələ səsvermə başlamasa da səs vermək üçün məntəqənin qarşısında qələbəlik idi. Firuzə Məmmədova, Elçin Osmanov, Sədaqət Məmmədova, Fərqanə Vəliyeva, Kamilə Əliyeva, Kamil Əliyev və adlarını çəkə bilmədiyim seçicilər məntəqəyə ilk gələnlərdən idilər. Geniş meydanda qoyulmuş siyahıda seçicilərin sayı 1260 nəfər göstərilirdi.

İlk dəfə səs verdiyim üçün mənə yol verildi. Məntəqənin sədri məni təbrk etdi. Təhsildə uğurlar arzuladı. Büllüteni götürdüm. Büllütendə 65 nəfər namizədin adı vardı. Ad və soyadları diqqətlə nəzərdən keçirdim. Tanıdığım namizədlərə səs verib həyatə çıxanda 80 yaşlı babamı gördüm. O da səs verməyə gəlmişdi. Dedi ki, indi seçicilərimiz öz hüquq və vəzifələrini yaxşı bilirlər. Ona görə də heç bir seçiciyə təzyiq edilə bilməz. Bu gün bu məntəqədə də bunun şahidi oldum.

Həvəs göstərib tez-tez məntəqənin həyətinə baş çəkirdim. Məntəqəyə axın davam edirdi.

Axşam çağıdır, şər qarışır. Məntəqənin sədri Vaqif Məmmədovun əhval-ruhiyyəsindən hiss olunurdu ki, burada seçki şəffaf, demokratik keçmişdir.

**ZƏRİF SALMANLI,**
**Bakı Dövlət Universitetinin**
**3-cü kurs tələbəsi**

# XEYİRLİ OLSUN!

**Dekabrın 23-də yerli özünüidarəetmə orqanlarına seçkilər günü şəhərin Rəfibəyli küçəsindəki 18 nömrəli binada (5 nömrəli ümumi orta məktəb) yerləşən 33 nömrəli seçki məntəqəsində də fəallıq hiss olunurdu.**

Səhər saat 8-dən başlayan seçki ciddi qanun pozuntusu olmadan davam etmişdir.

Mətbuat nümayəndəsi kimi bu məntəqədə oldum. Məntəqənin sədri Vaqif Qayıbov məlumat olaraq bunları söylədi:

-Tezdən, saat 8-də məntəqə üzvləriimiz müşahidəçilərlə birlikdə yerlərində idilər. Seçicilərimiz bir-bir içəri daxil olaraq büllüten götürərək istədikləri namizədlərə səs verməyə başladılar.

Seçicilərimizin sayı 807 nəfərdir. İlk dəfə səs verməyə gələn 18 yaşlı seçicilərimizdən Adil Abbasov, Zəhra Balayeva və Səbinə Səfərova istədikləri namizədlərə səs verdilər. Yaradılan şəraitə görə minnətdarlıqlarını bildirdilər.



Yaşlı seçicilərimizdən 79 yaşlı Soltan Məmiyev, 75 yaşlı Qəribnisə Məmmədova və başqaları da səsverməyə ilk gələnlərdən idilər.

Onlar bildirdilər ki, bütün seçkilərdə yaxından iştirak edirik. Bu ilki bələdiyyə seçkilərinə sevinclə gəldik. Son illər şəhərimizin abadlıq, quruculuq, yaşıllıq işlərinə xüsusi diqqət verilir. Bilirik ki, bu işlərdə bələdiyyə üzvləri öndə gedirlər.

Ona görə də seçkiyə gəlib növbəti beş il üçün bizlərə yaxşı xidmət edə bilən, problemlərimizin həllinə kömək göstərəcək namizədlərə səs verdik. İnanırıq ki, bələdiyyəyə yeni seçilənlər də işgüzarlıqları ilə fərqlənəcəklər. Onlara «Xeyirli olsun!» deyirik.

Məntəqə sədri onu da əlavə edib dedi ki, səsvermənin başa çatmasına az qalır. Seçicilərimizin yarıdan çoxu məntəqəmizdə olub .Onlardan heç bir ciddi şikayət almamışıq.

Vətəndaşlıq borcunu yerinə yetirən seçicilərimiz fəallıqları ilə fərqlənir, yaradılan əlverişli şəraitə görə razılıqlarını bildirirlər.

**Musaxan Heydərli,**
**İctimai müxbir**

# Şirvan şəhər prokurorluğunun əməliyyat işçilərinin 2020-ci ilin I rübündə vətəndaşların yerlərdə qəbulunun keçirilməsinə dair

## C Ə D V Ə L

| № | Qəbulun keçirildiyi yer | Tarix | İcraçılar |
|---|---|---|---|
| 1 | Şirvan şəhəri, Bayramlı qəsəbəsi | 08.01.2020 | Prokuror Natiq Abdullayev |
| 2 | Şirvan şəhəri,Hacıqəhrəmanlı qəsəbəsi 12 saylı tam orta məktəb | 30.01.2020 | Prokurorun müavini Rain Əliyev |
| 3 | Şirvan şəhər Mərkəzi xəstəxanası | 03.02.2020 | Prokuror Natiq Abdullayev |
| 4 | Şirvan şəhər 20 saylı tam orta məktəb | 28.02.2020 | Prokurorun köməkçisi Nəriman Nərimanlı |
| 5 | Şirvan şəhəri, 30-cu Nümunəvi məhəllə | 04.03.2020 | Prokuror Natiq Abdullayev |
| 6 | Şirvan şəhəri, 16 saylı tam orta məktəb | 30.03.2020 | Prokurorun müavini Rain Əliyev |

**Natiq Abdullayev,**
**Şirvan şəhər prokuroru, baş ədliyyə müşaviri**

# "Tariximizin ən böyük azərbaycanlısı"



**Şirvan şəhər Mərkəzi kitabxanasında ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "Tariximizin ən böyük azərbaycanlısı" adlı sərgiyə , "Heydər Əliyev və mədəniyyət" adlı fotostendə baxış keçirilmişdir.**

Sərgidə "Heydər Əliyev müstəqil Azərbaycanın banisidir", "Böyük insan", "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları", "Müstəqillik yollarında", "Heydər Əliyev və Azərbaycan parlamenti", "Şəxsiyyət və zaman", "Xalqa həsr olunan illər", "Heydər Əliyev məktəblilərin gözü ilə", "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Heydər Əliyev və mədəniyyət" və s. kitablar sərgilənmişdir.

Mərkəzi kitabxnanın Oxuculara xidmət şöbəsinin müdiri İlhamə İmanova Heydər Əliyevin həyat və fəaliyyəti, onun mədəniyyətimizə və kitabxanalara göstərdiyi qayğı haqqında məlumat vermişdir.

Əlavə edib dedi ki, ulu öndər Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, Vətənin milli-mədəni mövcudluğunu 16 ildir Pezident İlham Əliyev uğurla davam etdirir.

**"İŞIQ"**

# BU DAHİ ŞƏXSİYYƏT QƏLBLƏRDƏ ƏBƏDİ YAŞAYACAQ

## «AĞSAQQALLAR MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QIZIL FONDUDUR»

*Heydər Əliyev*

**Ulu öndər Heydər Əliyevin bu kəlamı dəyərli insanlarımız-ağsaqqallarımıza verdiyi qiymətdir. Ağsaqqallar, veteranlar da ümummilli lideri heç vaxt unutmayacaqlar. Ulu öndərin vəfatının 16-cı ildönümü ərəfəsində şəhər Ağsaqqallar Şurası və Veteranlar Şurası ulu öndərə hörmət əlaməti olaraq anım günü keçirdilər.**

Öncə dahi şəxsiyyət Heydər Əliyevin şəhərimizin mərkəzindəki abidəsi ziyarət olundu. Abidə ətrafına tər-çiçəklər düzüldü, ruhuna dualar oxundu.

Sonra tədbir Heydər Əliyev Mərkəzində davam etdirildi.

Ağsaqqalların, veteranların, ziyalıların nümayəndələri mərkəzdə ulu öndər Heydər Əliyevin mənalı həyat və fəaliyyətindən bəhs edən eksponatlar, fotoşəkillərlə tanış oldular.

Mərkəzin bələdçisi Səkinə Qayıbova anım iştirakçılarına ümummilli liderin həyat və fəaliyyətini əks etdirən sənədlər və stendlə yaxından tanış etdi. Bildirdi ki, qədirbilən xalqımız ulu öndərin Vətən, millət qarşısındakı misilsiz xidmətlərini unutmayacaq.

Tədbir iştirakçılarından Tamam Ağamalıyeva, Sabir Abdullayev və başqaları ulu öndər Heydər Əliyevin Şirvan şəhərinə gəlişi zamanı şəhər zəhmətkeşləri, ziyalı və ağsaqqalları ilə görüşünü xatırladılar, onunla bağlı digər xatirələrini danışdılar.

Anım mərasimində şəhər İcra Hakimiyyətinin məsul işçisi A.Hüseynov iştirak etdi.

**M.HEYDƏRLİ,**
**AJB-nin üzvü**

# Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev tərəfindən Şirvan şəhəri və Hacıqabul rayonundan olan vətəndaşların qəbulu keçirildi



**20 dekabr 2019-cu il tarixdə, Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Şirvan şəhəri və Hacıqabul rayonundan olan vətəndaşların qəbulunu keçirmişdir.**

Şirvan Gənclər Evində keçirilən qəbulda vətəndaşların müraciətləri meşələrin qorunması, biomüxtəliflik, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı olmuşdur. Vətəndaşları fərdi qaydada dinləyən nazir Muxtar Babayev müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi üçün aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar vermişdir.

Sakinlər, bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan əlverişli şəraitə, müraciətlərə həssaslıqla yanaşılmasına, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildirmişlər.

# Multikulturalizmin Azərbaycanda və dünyada rolu

**Multikulturalizm bütün dövrlərdə, əsrlər boyu dünyada və Azərbaycanda mövcud olmuşdur. Lakin Azərbaycanda dünya ilə müqayisədə multikulturalizim daha geniş vüsət almış və inkişaf etmiş, etməkdə də davam edir. Məlumdur ki, dünyada assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm siyasət modelləri mövcuddur. Biz bu siyasət modellərini təhlil edərəkən belə bir qənaətə gəlirik ki, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönələn bu siyasət modelləri sırasında müasir dövrdə ən səmərəlisi multikulturalizmdir. Çünki, bu siyasət modeli etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən dəyərlərin qorunmasına istiqamətlənmişdir. Bu isə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığı bir dövrdə olduqca vacibdir.**



**Aynur VƏLƏDOVA,**

***Şirvan şəhər icra hakimiyyəti sənədlərlə və vətəndaşların müraciəti ilə iş şöbəsinin məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı***

Kanada, Avstraliya, Hollandiya və bir sıra digər ölkələr kimi Azərbaycan da cəmiyyətdəki etnik-mədəni müxtəliflikləri multikulturalizm siyasəti vasitəsilə səmərəli şəkildə tənzimləyir. Uğurla apardığı bu siyasət nəticəsində Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. "Azərbaycan multikulturalizmi", "multikulturalizmin Azərbaycan modeli" terminləri siyasi leksikonda geniş istifadə olunmaqdadır.

Dövlət müstəqilliyinin yenidən bərpasından ötən 28 illik dövr müstəqil Azərbaycanın ictimai-siyasi iqtisadi və mədəni inkişafı tarixində mürəkkəb və şərəfli mərhələ olmuşdur. 1918-ci ilin 28 may tarixində Şərqdə ilk demokratik idarəetmə forması Azərbaycanda yaranmış, lakin qısa müddət sonra süqut etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra Sovetlər Birliyinin tərkibinə qoşuldu. Lakin XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdi. Dövlətimiz insan hüquq və azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini mütərəqqi yol kimi seçdi. Bu yolun daha uğurlu və gələcəkdə davamlı olmasını təmin etmək üçün multikulturalizmə daha çox önəm verilir. Multikulturalizm dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Ölkəmizdə multikulturalizimin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Yeni tarixi şəraitdə bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılır. Bunun əsas göstəricisi kimi cəmiyyət daxilində müxtəlif etnik qrupların,dini icmaların, irqi, və mədəni müxtəlifliklərin, o cümlədən bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin inteqrasiya olmalarını qeyd etmək olar. Bu, etnik və dini zəmində baş verəcək münaqişələrin qarşısını alır. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin tolerantlıq ənənələrinə, mədəniyyətlər və sivlizasiyalararası dəyərlərə mühüm töhvələr verdiyini nəzərə alaraq 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etmişdir.

Multikulturalizm bir çox mədəniyyətlərin birgə yaşaması, ahəngi harmoniyasıdır. Multikulturalizm bir siyasət modeli kimi ilk növbədə dövlətin daxili siyasətinin tərkib hissəsi, mühüm bir istiqaməti kimi çıxış edir. Çünki, o, ölkə daxilində olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönəlmişdir. Daha dəqiq desək, multikulturalizm daxili siyasətinin mühüm bir komponenti kimi cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına istiqamətləndirilmişdir.

Əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. Abşeronda atəşpərəstlik məbədi, Şəkidə alban kilsəsi, Şamaxıda 743-744-cü ildə inşa edilmiş dünyanın ən qədim məscidlərindən biri Şamaxı Cümə məscidi Azərbaycanda multikulturalizmin tarixi köklərə malik olduğunun əyani sübutudur. Dövlət başçısı bu baxımdan dəfələrlə öz çıxışında bildirib ki, Azərbaycanın təcrübəsi multikulturalizim ideyalarının təbliği üçün çox dəyərlidir. Çünki multikulturalizim Azərbaycan insanın həyat tərzidir.

Azərbaycanda insanın həyat tərzinə çevrilmiş multikulturalizm 2019-2020-ci tədris ilindən başlayaraq, "Multikulturalizmə giriş" fənni kimi ölkənin ali məktəblərinin bakalavriat səviyyəsi üzrə bütün ixtisasların təhsil proqramlarının humanitar fənlər blokuna daxil edilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş Bakı Multikulturalizm Mərkəzi Azərbaycanın multikulturalizm ənənələrinin xarici ölkələrdə təbliğ olunması məqsədi ilə çox işlər görmüşdür. Beləliklə hazırda dünyanın xarici universitetlərində, Azərbaycananın ali təhsil ocağlarında "Azərbaycan multikulturalizmi" fənni tədris olunur. Fənn kimi tədris olunmasında məqsəd müasir qloballaşma şəraitində çoxmədəniyyətli cəmiyyətlərdə mövcud olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasətinin əhəmiyyətindən və alternativsizliyindən irəli gəlir.

Azərbaycan Respublikasında multikulturalizmin bir siyasət olaraq inkişaf etdirilməsi, dünyanın bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri ilə iqtisadi əlaqələrin möhkəmlənməsinə də təsir göstərir. Belə ki, bir sıra dünya ölkələri ilə xarici ticarət əlaqələrinin qurulmasında, xarici investorlar tərəfindən ölkəmizin müxtəlif sahələrinə külli miqdarda investisiya yatırılmasında, xarici iş adamlarının ölkəmizdə şirkət qurub həm yerli əhalini, həm də müxtəlif millətlərin işlə təmin etməsi multikulturalizm faktorunun nə dərəcədə əhəmiyyətli olduğunu bir daha qeyd edir. Bundan əlavə qeyd edə bilərik ki, multikulturalizmin ölkəmizdə turizmin inkişafına da böyük təsiri vardır.

Tarixi-siyasi təcrübə və müasir etnik-dini proseslər göstərir ki, assimilyasiya, izolyasiya və aparteid kimi siyasi idarəçilik modelləri çoxmədəniyyətli və çoxmillətli cəmiyyətlərdə milli-mənəvi harmoniya və həmrəyliyi məhv edir, dinlərarası və mədəniyyətlərarası ziddiyyətləri daha da dərinləşdirir. Belə ki, multikulturalizm digər siyasi idarəçilik modellərindən fərqli olaraq, cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin müdafiəsini, eyni zamanda, titul etnosla milli azlıqlar arasında qarşılıqlı mədəni-mənəvi zənginləşmə və harmoniya üçün lazımi şəraiti və ictimai-siyasi sabitliyi təmin edir. Bu isə, öz növbəsində dinlərarası və mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişafına, milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiyasına səbəb olmaqla, müasir dövrdə çoxmədəniyyətli cəmiyyətin inkişafını şərtləndirən əsas amillərdən biridir. Qeyd olunanlara baxmayaraq bu gün bir sıra Avropa ölkələri multikulturalizmi gələcəyi olmayan məfhum kimi təqdim edirlər.

Lakin dövlət başçımız dəfələrlə öz çıxışlarında qeyd edib ki, Multikultirializimin alternativi yoxdur. Ekspertlər multikultirializimi dünyanın gələcək inkişafı üçün ən məqbul variant hesab edirlər.

Müasir dövrdə multikultirializimin əksinə olaraq özünütəcrid mövqeyi seçən xalqlar və dövlətlər nəinki inteqrasiya prosesindən kənarda qalır, eyni zamanda bəşəri dəyər və normalardan təcrid olunur.

Multikulturializimdən imtina etmək dünyada getdikcə artan anlaşılmazlığa, fobiyaya, qarşıdurmaya, milli və dini münaqişələrə aparıb çıxarır. Bu gün biz bəzi Avropa ölkələrində müsəlmanlara qarşı etibarsızlığın, aqresiyanın, inamsızlığın, sevgisizliyin təbliğinin şahidiyik.

Azərbaycan Ermənistan tərəfindən 25 ildən çoxdur ki, təcavüzə məruz qalmışdır. Beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi işğalçı Ermənistan tərəfindən işğal olunmuş, xalqımız etnik təmizləməyə məruz qalmış, bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Minlərlə vətəndaşımız qətlə yetrilmiş, yaralanmış və əsir götürülmüşdür. Düşmənin vandalizm siyasəti nəticəsində işğal olunmuş torpaqlarımızda bütün iqtisadi və sosial infrastruktur, dini və mədəniyyət abidələrimiz dağıdılmışdır. Lakin ümid edirik ki, multikultural ölkə olaraq biz müharibəsiz, danışıqlar yolu ilə ərazi bütövlüyümüzü bərpa edəcəyik, işğaldan əziyyət çəkən soydaşlarımız tezliklə doğma topaqlarına qayıdacaqlar.

# Yeni il bayramı barədə bildiklərimiz



**2019-cu ilə əlvida deyib, yeni 2020-ci ili qarşılayırıq. Ötən il kimi üçün maraqlı, şən, bol, uğurlu, xoşbəxt, kimi üçün-sə... Bəziləri ilin bitməsini heç istəməzkən, bəziləri də yeni ili səbirsizliklə gözləyirlər.**

Yeni il bayramı mədəniyyətindən, dilindən asılı olmayaraq dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrilib. O cümlədən, ölkəmizdə də bu bayram çox böyük coşqu ilə keçirilir. Daha çox balacaların sevdiyi bayramın atributları uca boylu, dolu bədənli, ağsaqqalı Şaxta baba və bər-bəzəkli, al-əlvan işıqlı küknar ağacıdır.

Bayramın yarama tarixi də hər kəsə maraqlıdır. Bu bayramın təxminən 25 əsrlik tarixi var. Köhnə ili bitirib yenisini qarşılamağı bayram etmək adəti ilk dəfə Mesopotomiyada meydana gəlmişdir. Zamanla başqa xalqlar da bu bayramı qeyd etməyə başlayırlar. Bəzi xalqların inancına görə bu bayramda xeyir tanrısı "Mərdük" ün şər qüvvələr və ölüm üzərində hakimiyyəti başlarmış, 12 gün ərzində təntənəli mərasimlər keçirilmişdir. Həmçinin o dövr gil kitabələrdən biri üzərində yazılmış mətnə görə bu bayramda "qul ağaya" cevrilərmis.

Babillərin işğalı altında olan yəhudilər də Yeni ili qeyd etməyə başlayırlar. Sonralar yahudilər bu ənənəni yunanlara ötürmuslər. Beləcə bu bayram yunanların vasitəçiliyi ilə Qərbi Avropaya yayılır.

Əsrlər keçir. Roma rəsmi olaraq xristian dövlət olur. Həmçinin Müqəddəs İsanın doğum günü dekabrın son günlərinə təsadüf edir. Beləcə həm ilin son günü, həm həyatın ölüm üzərində qələbəsi, həm də Milad günü kimi qeyd edilir.

Bəzədilmiş küknar ağacı və Şaxta baba olmadan Yeni ili təsəvvür etmək mümkün deyil. Küknar ağacının bəzədilməsi adəti tarixin ən uzaq səhifələrinə gedib çıxır. Küknar ağacı həyat rəmzi sayılır. İnanca görə küknar ağacını bəzəməklə həyatımızın yeni ilini təntənə ilə qarşılamış oluruq. Həmçinin bayram bəzəkləri ilə bəzənmiş evlər, rəngbərəng işıqlarla bürünmüş küknar ağacı yeni ili daha da əyləncəli edir.

Ən çox uşaqların sevdiyi Yeni ili daha da əyləncəli edənsə Şaxta babadır. Şaxta baba bir çox adlara malikdir. Belə ki, ona dünyanın müxtəlif ölkələrində ayrı-ayrı adlarla xitab edirlər. Lakin dünyada ən çox "Santa klaus" adı ilə məşhurdur. Əfsanəyə görə uzaq Laplandiya torpaqlarında yayan Şaxta baba dekabrın son gecə uşaqlara hədiyyələrini vermək üçün evlərin bacalarindan içəri daxil olur, hədiyyələri küknar ağacının altına qoyarmis Buna inanan körpə balalar hətta il boyu Şaxta babaya məktublar da yazarmıslar

Ölkəmiz isə 31 dekabrda iki bayram qeyd edir. Yeni illə yanaşı Dünya Azərbaycanlılarının Həmrəylik Gününü. Xalqımız bu iki bayramın sevincini böyük coşqu ilə qeyd edir. Respublikamızın bütün şəhər və rayonlarında kucələr, parklar yeni il ab-havasına bürünüb. Balacaların qəh-qəhə dolu gülüşləri, Şaxta baba üçün öyrəndikləri yeni il şeirləri, yeniyetmələrin, gənclərin bəzənmiş küknar ağacının ətrafına toplaşması, şən musiqilər, insanların bir-birinə "bayramınız mübarək" deməsi əhval-ruhiyyəni yüksəldir.



Bayramlar xoşbəxtlik, küsənləri barışdıran, insanları yaxınlaşdıran gündür. İnsanlara xoş əhval-ruhiyyə bəxş edir. Bəzənmiş küknar ağacları, həqiqət olmasa da Şaxta baba, rəngli isiqlarla bəzənmiş küçələr pəncərələr 7-dən 77-yə hər kəsin ruh halına xoş təsir bağışlayır.

Dünyamıza sülh, əmin-amanlıq, bol ruzi-bərəkət gətirsin yeni il Muharibələrdən, terrordan, göz yaşlarından uzaq, sülhlə, gözəlliklərlə dolu bir ilimiz olsun. İşğal altında olan torpaqlarımız azad olsun. Qaçqın və köçkünlərimiz dədə-baba torpaqlarına dönsünlər.

İnanca görəYeni ili necə qarşılasan başlayacaq olan 365 günün də elə keçər. Odur ki, dodaqlardakı gülüşü, gözlərdəki sevinci, ürəklərdəki sevgini bir-birimizdən əsirgəməyək.

Hər kəsə bu Yeni ildə xoşbəxt günlər, gözəl aylar və sevgi dolu bir il arzusu ilə bayramınız mübarək olsun deyirik.

**Aidə CƏNNƏTQIZI**

## YENİ İL ŞƏNLİKLƏRİNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

**Qarşıda «Yeni il» bayramı gəlir. Yeni il şənliklərini bəzəkli yolkasız təsəvvür etmək çətindir. Hər il olduğu kimi bu il də mədəniyyət və təhsil ocaqlarında, uşaq bağçalarında, yaşayış evlərində yolkalar qurulur və onlar müxtəlif bəzək əşyaları ilə bəzədilir. Lakin bəzən yanğın təhlükəsizliyi qaydalarının pozulması bayram şənliklərində qəmginlik gətirir, uşaqların odla dəcəlliyi yeni il şənliyini acınacaqlı sonluqla bitirir. Buna görə də müəllimlərin, tərbiyəçilərin və məktəblilərin yeni il şənliklərini təşkil edərkən hansı yanğın təhlükəsizliyi tədbirləri görülməsini bilmələri zəruridir.**

Şam ağacı qurulmuş otaqların yaxınlığındakı dəhlizlərin, foyelərin və s. ehtiyat çıxış qapıları «Çıxış» sözü yazılmış işıqlandırıcı göstəricilərlə və tez açıla bilən cəftə ilə təmin olunmalıdır.

Şam ağacı qurularkən yerə möhkəm bərkidilməli, yaxud yıxılmayan dayaq üstündə qurulmalıdır, həmçinin onun budaqları tavana və divara toxunmamalıdır. Onun işıqlandırılması isə elektrik cərəyanı ilə yalnız zavodda hazırlanmış standartlara uyğun avtomat qrilyandla olmalıdır.

Yeni il şənlikləri zamanı pambıqdan, tənzifdən, kağızdan və digər tezalışan materiallardan tikilmiş paltarlar geymək olmaz. Yolkaları şamlarla işıqlandırmaq olmaz. Bu olduqca təhlükəlidir. Onu oddan qoruyucu maye hopdurulmamış pambıqla bəzəmək , ondan tezalışan sellüloz kağız və s. hazırlanmış oyuncaqlar asmaq, eləcə də bertoli duzu səpmək qadağandır.

Yeni il şənlikləri zamanı qığılcım səpən fişəng və digər oyuncaqlardan istifadə etmək təhlükəlidir. Uşaqlar bayram şənlikləri ərəfəsində odlu fişəngləri və digər partlayıcıları fikirləşmədən istənilən səmtə ata bilərlər. Həmin fişənglər müxtəlif tikililərin yanar konstruksiyalarının üzərinə düşərsə yanğın törətməklə bədbəxt hadisələrin baş verməsinə səbəb olar.

Yeni il şənlikləri zamanı hər bir müəllim və məktəbli yanğından mühafizə orqanlarının yaxın köməkçisi olmalı, yeni il yolkası qurulan zaman yanğın təhlükəsizliyi qaydalarının yerinə yetirilməsinə nəzarət etməli, yanğın təhlükəsizliyi ilə bağlı aşkar olunmuş qayda pozuntuları hallarının aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidirlər.

Yeni iliniz mübarək!

Yanğın hadisəsi baş verdikdə 101 və ya 112 nömrələrinə zəng etməyi unutmayın!

**Fövqəladə Hallar Nazirliyinin Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

**"İŞIQ"- 2020**

**ƏZİZ OXUCULAR!**

2020-ci ilin I yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti "İŞIQ"a abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır. "İşıq"a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar. H\ h- AZ39AIIB 33060019444100281141. VÖEN -2100104521. İndeks 66858 "İşıq"a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

**"TƏHSİLDƏ İNKİŞAF VƏ İNNOVASİYALAR ÜZRƏ" III QRANT MÜSABİQƏSİ**

## VƏSAİTİN TƏQDİMATI-YEKUN TƏDBİRİ

**13№li tam orta məktəb kitabxanasının oxu zalında "Təhsildə inkişaf və innovasiyalar üzrə" III qrant müsabiqəsi çərçivəsində hazırlanmış "LİNQVİSTİK TƏHLİL BACARIQLARININ FORMALAŞMASI ÜÇÜN XÜSUSİ VƏSAİT" adlı kitabın təqdimatı-layihənin yekun tədbiri keçirilmişdir. Tədbirdə müxtəlif məktəblərin Azərbaycan dili və ədəbiyyat müəllimləri, təhsil şöbəsinin metodistləri iştirak etmişlər.**

Tədbiri giriş sözü ilə açan məktəbin direktor əvəzi Günel Səfalı iştirakçılara "Təhsildə inkişaf və innovasiyalar üzrə" qrant müsabiqələri haqqında məlumat vermiş, bu müsabiqələrin təhsilimizin inkişafında xüsusi əhəmiyyəti olduğunu qeyd etmiş, bu müsabiqədə Şirvan müəllimlərinin qazandığı uğurlardan söz açmışdır. Qeyd edilmişdir ki, bu müsabiqədə şəhərimizi 3 №li məktəbin fizika müəllimi Vasif Zeynalov(II və III qrant), 1 №li tam orta məktəb-lisenin məntiq müəllimi, Əməkdar müəllim Rəfail Əliyev(II qrant) və 13 №li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Minarə Əliyeva(III qrant) təmsil etmişlər.

Sonra layihə rəhbəri Minarə Əliyeva layihə çərçivəsində gördüyü işlər haqqında iştirakçılara layihənin hazırlanması prosesindəki fəaliyyətindən, hazırlanmış vəsaitin tədrisin keyfiyyətinə göstərə biləcəyi məqamlardan söz açmışdır. Təqdimat mərasiminin iştirakçıları layihə rəhbərinə belə bir vəsait hazırladığı üçün təşəkkür etmiş, maliyyə dəstəyinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinə minnətdarlıq ifadə etmişlər.

Çıxış edənlərdən Şirvan şəhər 16 №li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi İradə Rəhimova dedi: "İnanıram ki, bu vəsait təhsilimizin, xüsusilə Azərbaycan dilinin tədrisində keyfiyyətin yüksəldilməsində əhəmiyyətli rol oynayacaq. 21 №li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Ruqiyyə Babayeva bu vəsaitin davamının da hazırlanmasını arzu etmiş, 11 №li tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Zülfiyyə Hüseynova isə gələcəkdə bu vəsaitin kütləvi tirajla nəşrini təklif etmişdir.

Tədbirin sonunda təqdimat iştirakçılarına vəsait və disklər paylanmışdır.

**"İŞIQ"**

## MƏSULİYYƏT, HƏSSASLIQ KÖMƏYƏ ÇATDI

**Gəlinim Südabə Xurşudovanın kəskin ağrıları bizi şəhər təcili və təxirəsalınmaz tibbi yardım stansiyasına müraciət etməyə məcbur etdi. İnsafən ağxalatlılar çağırışımıza təcili də gəldilər. Gənc həkim Bəhruz Zərbəliyev xəstəni diqqətlə müayinə etdi. İlkin yardım da göstərdi. Sonra qənaətini bizə bildirdi: xəstəni xəstəxanaya çatdıraq.**

MŞX-nın qəbul şöbəsində bizi peşəkar həkim Yusif Müxtəsimov qarşıladı. O da əvvəlcə xəstənin narahatlığının səbəbini araşdırdı. Diqqətlə müayinədən sonra böyrəyindən şübhələndiyini bildirdi. Tibb bacılarının köməyi ilə gəlinim Cahid həkimin səyi ilə «USM» aparatından keçdi. Xəstəyə düzgün diaqnoz qoyuldu. Düzgün diaqnoz isə səmərəli müalicə deməkdir.

Təcili tibbi yardım stansiyasının həkimi B.Zərbəliyevin, MŞX-nın qəbul şöbəsinin müdiri Y.Müxtəsimovun və Cahid həkimin işlərinə məsuliyyətlə, xəstəyə həssaslıqla yanaşmaları müsbət sonluqla bitdi. Ona görə də adları çəkilən ağxalatlılara ailəmiz adandan təşəkkürümüzü bildiririk.

**İdris XURŞUDOV, Şirvan şəhəri, Xanlar küçəsi, 107 nömrəli evin sakini**

## ETİBARSIZDIR

Əli Bayramlı şəhər (indiki Şirvan şəhər) İcra Hakimiyyəti başçısının 29 dekabr 2004-cü il tarixli 72 saylı qərarı ilə Hacıqəhrəmanlı qəsəbə sakini (Şirvan şəhəri) mərhum Balaxanov Əliağa Fərhad oğlunun adına verilmiş 0,12 hektar həyətyanı torpaq sahəsinin JH-226 F, 91100048 kodlu şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

***

Şirvan şəhər sakini Gözəlov Elburus Möhtəbər oğluna məxsus mənzilin (Şirvan şəhəri N.Nərimanov küçəsi ev 7, mənzil 2) 911011000045-05101-093002 Reyestr nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız: Baş redaktor: 6-35-60 Redaktor müavini: 6-31-35 E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız: Şirvan şəhəri, İ.İ.Qayıbov küçəsi 16, Şəhadətnamə №161 İndeks: 66858 Tiraj: 850